**“AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL HAQQINDA QANUNUN 14.8-ci bəndinə” əsasən “Xüsusi güzəşt və imtiyazları olan bakalavrlar” ümumi sənədlərdən (İllik təhsil haqqı ödənişi istisna olmaqla) əlavə olaraq tələb olunan sənədlər:**

**İmtiyazlı bakalavrlar my.gov.az portalında uyğun olduğu kateqoriyanı seçdikdən sonra həmin kateqoriya üzrə aşağıda göstərilmiş sənədləri portala daxil etməlidir. Həmçinin, dərslər başlayanda təhsil alacaqları müvafiq korpuslarda mövcud qanunvericiliyə əsasən universitet ilə müqavilə imzalayan zaman imtiyazlı bakalavrlar tələb olunan sənədləri mühasibatlığın nümayəndəsinə təqdim etməlidirlər.**

1. Bakalavrın doğum haqqında şəhadətnaməsinin notarial təsdiqli elektron surəti (bütün imtiyazlı kateqoriyalarda tələb olunur).

**Əlavə olaraq,**

**I. Azərbaycan Respublikasının Prezidentinin “Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında” 14 sentyabr 2011-ci il tarixli Sərəncamına əsasən məcburi köçkün statusu olan Azərbaycan Respublikası vətəndaşları illik təhsil haqqı ödənişindən azad edilirlər.**

**Tələb olunan sənədlər:**

1. Bakalavrın cari ilin sonunadək qeydiyyatdan keçirilmiş məcburi köçkün vəsiqəsinin notarial təsdiqli elektron surəti (vəsiqənin şəkil olan və son qeydiyyat səhifəsi təqdim olunmalıdır).

**II. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” 22 iyun 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu (maddə 5) və "Təhsil haqqında” Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanununa (maddə 14-8-1) əsasən aşağıdakı kateqoriyalara aid olan ən çoxu 23 yaşınadək şəxslər illik təhsil haqqı ödənişindən azad edilirlər:**

1. **Hər iki valideyni vəfat etmiş şəxslər üçün** - Hər iki valideynin ölüm haqqında şəhadətnaməsinin notarial təsdiqli elektron surəti;
2. **Bir valideyni vəfat etmiş və o biri valideyni isə I və ya II qrup əlil olan şəxslər üçün** - Bir valideynin ölüm haqqında şəhadətnaməsi, digərinin I və ya II qrup əlillik vəsiqəsi notarial təsdiqli elektron surəti (vəsiqənin şəkil olan və son qeydiyyat səhifəsi təqdim olunmalıdır, vəsiqə olmadıqda arayış təqdim olunmalıdır) və şəxsiyyət vəsiqəsinin (hər iki üzü) elektron surəti;
3. **Hər iki valideyn himayəsindən məhrum olmuş şəxslər üçün -** Qanunla nəzərdə tutulmuş qaydada digər hallarda valideyn himayəsindən məhrum hesab edilən şəxslərə aid müvafiq sənədlərin notarial təsdiqli elektron surəti.

**III. Azərbaycan Respublikasının Prezidentinin “Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019/2020-ci tədris ilindən etibarən dövlət**

**büdcəsinin vəsaiti hesabına ödənilməsi haqqında" 3 may 2019-cu il tarixli Sərəncamına əsasən bu kateqoriyalardan olan şəxslər illik təhsil haqqı ödənişindən azad edilirlər.**

**Tələb olunan sənədlər:**

1. I və ya II qrup əlillik vəsiqəsinin notarial təsdiqli elektron surəti (vəsiqə olmadıqda arayış) və ya sağlamlıq imkanları məhdudluq haqqında arayışın elektron surəti.

**IV. Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının 18 mart 2014-cü il tarixli Sərəncamına əsasən 2014/2015-ci tədris ilindən etibarən, həmçinin Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin 2023/2024-cü tədris ilindən etibarən illik təhsil haqqı ödənişindən azad edilirlər.**

**IV.I. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş vətəndaşların övladları:**

**Tələb olunan sənədlər:**

1. Valideynin əlillik vəsiqəsinin notarial təsdiqli elektron surəti (Əlillik səbəbi birbaşa Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqəli olmalı və sənəddə bu haqda məlumat öz əksini tapmalıdır, vəsiqənin şəkil olan və son qeydiyyat səhifəsi təqdim olunmalıdır);
2. Əlil valideynin şəxsiyyət vəsiqəsinin (hər iki üzü) elektron surəti.

**IV.II. Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların övladları:**

**Tələb olunan sənədlər:**

1. Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmasını, hərbi əməliyyatla əlaqədar itkin düşməsini və məhkəmə tərəfindən ölmüş elan edilməsini təsdiq edən sənədin notarial təsdiqli elektron surəti.

**IV.III. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər:**

**Tələb olunan sənədlər:**

1. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almasını təsdiq edən sənədin notarial təsdiqli elektron surəti.

**V. “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” 3 sentyabr 1993-cü il tarixli Azərbaycan Respublikasının Qanununa (maddə 3) əsasən ər-arvad, valideyn, 18 yaşına çatmamış uşaqlar, 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan övladları, qardaşlar və bacılar - uşaq evlərində tərbiyə olunanlar ali təhsil müəssisələrində təhsil alanlar isə həmin təhsil müəssisələrini və elmi təşkilatın magistratura səviyyəsini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək illik təhsil haqqı ödənişindən azad edilirlər. 18 yaşı tamam olan şəxslər şəhid ailəsinin üzvü kimi müstəqil vəsiqə almalıdır.**

**Tələb olunan sənədlər:**

1. Şəhid ailəsi olması haqqında vəsiqəsinin notarial təsdiqli elektron surəti (Şəhid ailəsi üzvlük vəsiqəsinin hər iki üzü təqdim olunmalıdır);
2. Mərhumun ölüm haqqında şəhadətnaməsinin notarial təsdiqli elektron surəti.